

# İstə, hədəflə və risk et...

## Səidə Qasımova: “Qadının bacarmayacağı heç nə yoxdur”

Aygün ƏZİZ

**Təhsili fərqli yöndə olsa da, qarşısına məqsəd qoyub və öz işinin ardınca gedib. Hətta regionda yaşamağı belə, onun Bakıda öz işinin sahibi olmasına maneçilik törətməyib. Özünün də dediyi kimi, risk edib və uğura nail olub. Müsahibimiz AzPrint reklam və çap evinin direktoru Səidə Qasımovadır.**

**Səidə Lənkəranda anadan olub. Lənkəran Dövlət Universitetini bitirib. Əsl sənəti ibtidai sinif müəlliməsi olsa da, bu sənətə sevərək yiyələnmədiyi üçün arxasınca getməyib. Özünü heç vaxt müəllim kimi hiss etməyib. Tək məqsədi kiçik də olsa, reklam və çap evi açmaq olub. Universitetlə bərabər kompyuter, dil kurslarına gedib. Qrafik dizayner işini öyrənib və bu gün artıq 11 ildir ki, AzPrint Reklam və Çap Evinin direktorudur.**

**- Səidə xanım, gənc olmanıza baxmayaraq, 11 ildir direktor işləyirsiniz. 11 il əvvələ qayıtsaq, gənc yaşınızda rəhbərlik etmək çətin olmadı ki?**

- Ümumiyyətlə, həyatda asan heç nə yoxdur. Rəhbər, idarəçilikdə olan insanlarla normal münasibət qurduqda iş öz axarında gedir. Mən işçilərimlə normal münasibət qurmuşam. Hətta onlara işçi kimi yanaşmıram. Çünki mən rəhbər olsam da, onlar da mənim həmkarlarımdır. Elə rəhbərlər var ki, çox sərtdir və tabeliyində olan işçiləri incidir. Bizim şirkətimizdə elə bir münasibət yoxdur. Həmişə çalışmışam ki, mehriban kollektivimiz olsun, işçilər həvəsdən düşməsin. Təsadüfən hirslənərəm. Səhv etsələr belə, güzəştə getməyi bacarıram. Məncə, rəhbər, işçinin hər formada yanında olmalı, onu qorumalıdır ki, işinin keyfiyyətinə də müsbət təsir etsin. Bütün bunlara riayət etdikdə, rəhbər olmaq heç də çətin deyil.

**- Gənc rəhbərsiniz. Tabeçiliyinizdə olan və sizdən yaşca böyük işçilərlə münasibətlərinizi necə qurursunuz?**

- Yaşlı işçilərim olub. 50-60 yaşında. Onlara çox hörmətlə yanaşmışam. Özündən yaşlı işçi olanda istər-istəməz digər işçilərdən fərqləndirməyə məcbursan. Ailədə böyüyə necə hörmət ediriksə, işdə də bir böyük kimi onlara hörmətlə yanaşmışam.

**- İxtisasınız başqa yöndə olsa da, kompyuter sahəsinə yönəlmisiniz. Necə oldu ki, kompyuteri seçdiniz?**

- Öz ixtisasımı sevməmişəm. Özümü uşaqlarla işləyərkən təsəvvür etmirəm. Məncə, insan sevdiyi işin ardınca getsə, uğurlu olar. Qrafik dizayn işini sevdiyimə görə qarşıma məqsəd qoydum və bu məqsədimin ardınca getdim.

**- Səidə xanım, karyera qurmağın yaşı varmı?**

- Məncə, karyera qurmağın konkret vaxtı yoxdur. İnsan özünü nə vaxt güclü hiss etsə və düşünsə ki, bunu bacaracam, o vaxt karyera qurmağa başlamalıdır.

Addım atmaqdan qorxmaq lazım deyil və bunun yaşı yoxdur. Uşaq özündə güc tapdığı zaman yeriməyə başladığı kimi, insan da özünə güvənən zaman irəliləməlidir.

**- Qadın üçün ailə ilə karyeranı birlikdə aparmaq çətin deyil ki?**

- Asan deyil. Qadın olaraq çətindir. Amma düşünürəm ki, qadın istəyərsə, onun öhdəsindən gələ bilməyəcəyi heç nə yoxdur. Qadın ailəni də, işini də idarə edə bilir. Çünki qadınlar kişilərdən fərqli olaraq, multifunksionaldır.

**- Araşdırmalara görə, qadınların rəhbər olduğu şirkətlərdə verimlilik daha çoxdur. Bu nə ilə bağlıdır?**

- Məncə, qadın güzəştə getməyi bacarır və kişilərdən daha səbirlidir. Biz hər bir hadisəni sülhlə həll edir, hər məsələdə ortaq məxrəc tapa bilirik. Bu zaman işdə problem də az, işin keyfiyyəti isə daha yaxşı olur. Əgər qadınlarda olan səbir, təmkin, güzəştə getmək bacarığı kişidə də olsaydı, onlarda iş keyfiyyəti daha yüksək olardı.



**- Bəzi kişilər qadının idarəçilik qabiliyyətinə şübhə ilə yanaşırlar. Sizcə, bu nə ilə bağlıdır?**

- Həmişə “qadın bacarmaz”, “qadın bunu edə bilməz”, “bu qadın işi deyil” kimi fikirlərlə qadını zəif göstərirlər. Qadın zərifdir, zəif deyil. Hətta deyərdim ki, qadın mənəvi cəhətdən daha güclüdür. Bunun üçün onun bacarmadığı, öhdəsindən gəlməyəcəyi iş yoxdur. Məncə, qadının qarşısında məqsəd olsa, hər bir vəzifənin öhdəsindən gələ bilər.

**- Uğurunuzun sirri nədir?**

- İstək, hədəf və özünə inam. Qarşına məqsəd qoyub ona tərəf hər kəs addımlaya bilər. Amma bu zaman qarşına çıxan əngəlləri aşa bilməyi hər kəs bacarmır. Yorulur, zəifləyir, geriyə çəkilir. Əgər səni bu əngəllər qorxutmayacaqsa, deməli, uğur qazana bilərsən. Qarşıma çıxan çətinlikləri aşdıqca daha bir addım irəli gedirəm. Hər dəfə çətin bir işin öhdəsindən gəlməyim mənə böyük zövq verir və bu, mənim yeni bir uğurum olur.

**- Uğurlu karyerada ailə nə dərəcədə rol oynayır?**

- Ailənin dəstəyi önəmlidir. İstər anam, istərsə də atam hər zaman mənə dəstək olub. Əgər yanında ailənin dəstəyini hiss edirsənsə, o zaman özünü daha güclü hiss edirsən və hədəflərini daha da böyüdürsən. Ailənin dəstəyi insan üçün ən böyük gücdür. Nə zaman problemim olursa, bunu birgə həll edirik. Əgər ailəm dəstək olmasaydı, bəlkə də məndə heç bir şey alınmazdı. Çünki insanın ailəsindən dəstək görməsi çox önəmlidir. Bizim ailəmizdə isə güc birliyi var.

**- İlk dəfə rəhbər olduqda “bacarmaram” deyə düşündünüzmü?**

- İlk dəfə öz işimi quranda qətiyyən ağlıma “bacarmaram” fikrini gətirməmişəm. O zaman hər şeyi bacaracağımı düşünürdüm. İşə başlayanda heç nədən qorxmurdum. Amma indi keçmişə baxanda özümə təəccüblənirəm ki, necə özgüvənli olmuşam. Fəaliyyətə kiçik bir ofisdə başladım. Heç fikirləşmirdim ki, mənim üçün nəsə çətin ola bilər. Düzdür, çox çətinliklərlə qarşılaşdım, amma qorxmadım, geri çəkilmədim. Risk etdim və məqsədimə çatdım. Çətinliklər heç zaman məni qorxutmayıb. Hətta ilk fəaliyyətimə başlayanda qrafik dizayn və digər işləri özüm həyata keçirirdim. Düşünürəm ki, bu işdə uğur qazanmağımın sirri işimi sevməyim və yorulmadan çalışmağımdır. İşimi sevməsəm, çətinliklərə dözməzdim. Həmişə deyirdim ki, mən bacaracam və bacardım. İstədiyim əldə etdim.

**- Gələcək planlarınız nədir?**

- Gələcəkdə yeni çap və reklam avadanlıqlarını əldə etməyi planlaşdırıram. İlk fəaliyyətimi dizayn və çap işləri ilə başladım. Artıq digər fəaliyyətə də keçmişik. Reklam, çap və promo sahəsinin daha geniş bir şəkildə inkişaf etdirilməsini planlaşdırıram. Bu sektorda yeniliklər çox olur. O yenilikləri araşdırmalıyam. Bu sahəyə yeniliklər, fərqliliklər gətirməli, yeni layihələr üzərində işləməliyəm. İşimin inkişafı üçün nə lazımdırsa, onları etməliyəm.

**- Gənc qadınlara nə demək istərdiniz?**

- Qadınlarımızın çoxu addım atmağa qorxur. Amma qorxmasınlar və özlərinə güvənsinlər. İşləmək, öz üzərində çalışmaq və bacarıqlarından istifadə etmək lazımdır. Unutmayın, qadının bacarmayacağı heç nə yoxdur. Əziz xanımlar, biz güclüyük!

